**PRESS-RELİZ**

## BREXİT:QEYRİ-MÜƏYYƏNLİK DAVAM EDİR; IFAC QARŞIDA DURAN PROBLEMLƏRİ QƏBUL EDİR, GÜCLÜ VƏ DAYANIQLI DÜNYA İQTİSADİYYATININ DƏSTƏKLƏNMƏSİ ÜÇÜN QLOBAL ŞƏKİLDƏ İŞ BİRLİYİNƏ ÇAĞIRIR

Nyu-Yorkdakı 24 iyun tarixində baş tutan Böyük Britaniya referendumunun nəticəsi bir çox insanları təəccübləndirdi və bunun nəticəsində kapital bazarları öz mənfi təsirini göstərdi, qısa müddət ərzində bu qeyri-müəyyən təsirlərin davam edəcəyini gözləyirik.

Bunun aradan qaldırılması prosesi bir neçə ili əhatə edən uzun və mürəkkəb proses ola bilər və Avropada domino təsirini təxmin etmək çətin deyil.

"Aydındır ki, Böyük Britaniya, Avropa və dünyanın bir çox başqa ölkələri bu cür qeyri-müəyyənlik dövründə fəaliyyət göstərəcək. Mühasibatlıq peşəsi bir çox məsələlərdə vacib rol oynayacaq" deyə İFAC-ın Baş İcraçı Direktoru Fayezul Choudhury bildirib.

IFAC hesab edir ki, aşağıdakı sahələrdə bu mövzuların təsiri daha geniş olacaq:

● qısamüddətli riskləri nəzərə alan və uzunmüddətli planlar üzərində düşünən şirkətlər üçün;

● tənzimləyicilər üçün, çünki onlar mürəkkəb və bölünmüş tənzimləyici mühit üzərində son hadisələrin təsirini aradan qaldırmağa çalışır;

● kapital bazarları üçün, çünki onlar stabilliyi və nizamlı prosesi bərpa etməyə cəhd göstərirlər;

● və hökumətlər üçün, çünki onlar bu hadisələrdən təsirlənən sahələrin dövlət siyasətini xüsusilə də vergi siyasətini yenidən təşkil edirlər;

IFAC daim qlobal əməkdaşlıq və koordinasiyanı müdafiə edir və davamlı qlobal iqtisadiyyatı dəstəkləmək məqsədilə hökumətləri birgə iş birliyinə dəvət edir. Davamlı iş birliyi inkişaf etmiş dövlət sektorlarında maliyyə idarə etməsi və şəffaflıqla bağlı yüksək keyfiyyətli standartların istifadəsini və qəbul edilməsini artırır və vergi siyasəti mövzusunda cəmiyyətin xeyrinə olan nəticələr və həll yollarının tapılması üçün birlikdə çalışır.

"IFAC qarşıya çıxan problemlərin,  kapital bazarları və iqtisadiyyatların üzləşdiyi çətinliklərin həlli üçün birlikdə işləməyin əhəmiyyətini hər zaman  xüsusi vurğulayır " deyə cənab Choudhury vurğulayıb. "BREXIT bu iş birliyi ilə bağlı yanaşmanı daha real hala gətirəcək və qlobal mühasibatlıq peşəsi bir çox sahələrdə gərəkli olacaq, bunun üçün də yüksək bilik və təcrübədən istifadə edilərək işlənəcək.”